

## Ölkəmizi tanıyaq



# Gənclərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayan layihə

### Qax - Zaqatala - Balakən

Azərbaycan Prezidenti İlham Əliyevin tövsiyəsinə əsasən, “Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyanın növbəti mərhələsi çərçivəsində Qax, Zaqatala və Balakən rayonlarının məktəblilərindən ibarət qruplar noyabrın 16-da səhər saatlarında Lənkəran-Masallı-Astara marşrutu üzrə respublikamızın cənub bölgəsinə yola salınıblar.

Tur-aksiyada iştirak edəcək Qax məktəbliləri ilə noyabrın 15-də rayon icra hakimiyyətində görüş keçirilib.

Görüşdə məktəblilər həmçinin Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılıblar. Diqqətə çatdırılıb ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də “Əsrin müqaviləsi”nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunur. Bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə bu il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının birgə işlənməsinə dair saziş isə “Yeni əsrin müqaviləsi” adlandırılır. Yeni müqaviləyə görə, bu yataqlardan 2050-ci ilədək çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirəcək.

Noyabrın 16-da isə məktəbliləri yola salmaq üçün səhər saatlarından Qax şəhərinin mərkəzindəki meydana toplaşan rayon rəhbərliyi, müəllim və valideynlər tur-aksiya iştirakçılarına tövsiyələrini verir, səfər zamanı necə davranmalı olduqlarını bir daha izah edirdilər.

Yolasalma mərasimində bildirilib ki, məktəbliləri respublikamızın cənub bölgəsində maraqlı ekskursiyalar gözləyir. Onlar dörd gün ərzində Lənkəran, Masallı və Astara rayonlarının tarixi məkanları, muzeyləri ilə yaxından tanış olacaq, bu rayonların görməli yerlərini gəzəcəklər. Bundan əlavə, onların asudə vaxtlarının mənalı və səmərəli keçməsi üçün müxtəlif intellektual oyunların, əyləncəli proqramların təşkili də nəzərdə tutulub.

Şəhər 3 nömrəli tam orta məktəbin XI sinif şagirdi Fəxriyyə Əfəndiyeva, 2 nömrəli tam orta məktəbin X sinif şagirdi Hüseyn Aşurov və digər məktəblilər aksiyada iştirak etdiklərinə görə böyük sevinc hissi keçirdiklərini bildiriblər.

Tur-aksiya iştirakçılarına hədiyyələr təqdim olunub.

Sonra məktəblilər onlar üçün ayrılmış avtobusa əyləşərək ölkənin cənub bölgəsinə yola düşüblər.

* * *

Tur-aksiyaya Zaqatala məktəbliləri də böyük həvəslə qoşulublar.

Cənub istiqamətində ekskursiyaya yollanan məktəblilərlə bir gün öncə Heydər Əliyev Mərkəzində keçirilən görüşdə vurğulanıb ki, ölkəmizin tarixini, mədəniyyətini, müstəqillik illərində qazanılan nailiyyətləri dərindən öyrənmək məqsədi daşıyan bu layihə Prezident İlham Əliyevin yetişməkdə olan gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyə olunmasına verdiyi böyük önəmin bariz nümunəsidir. İcra hakimiyyətinin başçısı ekskursiyanın məktəblilər üçün çox faydalı olacağına, tur-aksiya iştirakçılarının ölkəmizin cənub bölgəsindən zəngin təəssüratlarla qayıdacaqlarına əminliyini bildirib.

Noyabrın 16-da səhər saatlarında Zaqatala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında böyük qələbəlik var idi. Lənkəran-Masallı-Astara marşrutu üzrə ekskursiyaya çıxan məktəbliləri yola salmaq üçün mərkəzin qarşısına toplaşan rayonun rəhbər işçiləri, müəllim və valideynlər şagirdlərə tövsiyələrini verirdilər.

Məktəblilər əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsi önünə gül-çiçək düzüb, dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.

Qrupun rəhbəri, rayon icra hakimiyyətinin nümayəndəsi Sərxan Maqsudov müsahibəsində deyib: “Məktəblilərin həyatında tarixi bir gündür. Onların əksəriyyəti ilk dəfədir respublikamızın dilbər guşələrinə səyahət edirlər. Gənclər cənub bölgəsinin tarixi məkanlarını, məşhur turizm obyektlərini indiyədək televiziya ekranlarında izləyiblər. İndi isə onlar bu gözəllikləri öz gözləri ilə görəcəklər”.

Zaqatala şəhərindəki 3 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Fatimə Bayramova, Əliabad qəsəbə 4 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Ümid Madayev və digər məktəblilər gənclərə belə gözəl layihə bəxş etdiyinə görə məktəblilər adından Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər.

Rayon rəhbərliyinin, müəllim və valideynlərin xeyir-duasından sonra məktəblilər onlar üçün ayrılmış avtobusa əyləşərək Lənkəran-Masallı-Astara marşrutu üzrə yola düşüblər.

* * *

“Ölkəmizi tanıyaq” devizi ilə keçirilən maarifləndirici tur-aksiyaya 2017-ci il üçün Azərbaycanın Gənclər Paytaxtı seçilən Balakən rayonunun məktəbliləri də böyük sevinc hissi ilə qoşulublar.

Tur-aksiya çərçivəsində noyabrın 16-da səhər saatlarında rayonun fəal məktəblilərindən ibarət qrup cənub bölgəsinə yola düşüb.

Yolasalma mərasimindən əvvəl rayon icra hakimiyyətində tur-aksiya iştirakçıları ilə rayon rəhbərliyinin görüşü olub.

Lənkəran-Astara-Masallı marşrutu üzrə ekskursiyaya çıxan Balakən məktəblilərini yola salmaq üçün Mədəniyyət Mərkəzinin qarşısına toplaşan rayonun rəhbər işçiləri, müəllim və valideynlər gənclərə tövsiyələrini veriblər.

Zərifə Əliyeva adına Balakən şəhər 3 nömrəli tam orta məktəbin X sinif şagirdi Emilya Sodiyeva, şəhər 1 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Abdulməcid Mammədov, Gərəkli kənd tam orta məktəbin XI sinif şagirdi Alvina Dibirova tur-aksiyanın digər iştirakçıları olduqca şən görünürdülər. Onlar bu ekskursiyadan çoxlu bilgi, məlumat əldə edəcəklərinə əmindirlər. Məktəblilərin əksəriyyəti ilk dəfədir respublikamızın cənub bölgəsinə səyahət edirlər. Dövlət başçısının təşəbbüsü ilə gerçəkləşən bu layihə sayəsində balakənli məktəblilər tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər. Lənkəranda “Qoşa qala” qapıları, Həzi Aslanovun ev-muzeyi, Dairəvi qala, Mayak binası, Hirkan Milli Parkı, Xanbulan gölü, çay plantasiyaları, sitrus meyvə bağları, Astarada şəhər bulvarı, “Yanar bulaq” və “Astaraçay” çay fabriki, Masallıda Tarix-Diyarşünaslıq Muzeyi, Uşaq İncəsənət Məktəbi, Dövlət Rəmzləri Muzeyi, “ASAN həyat” kompleksi və Viləşçay su anbarına ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq.









Sonra tur-aksiya iştirakçıları onlar üçün ayrılmış avtobusla Lənkəran-Astara-Masallı marşrutu üzrə yola düşüblər.

### Xaçmaz

Noyabrın 16-da “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində təşkil olunan tur-aksiyanın şimal rayonlarından olan iştirakçıları Qəbələ-Şəki-Zaqatala marşrutu üzrə yola çıxıblar.

Şimal-qərb bölgəsinə ekskursiyada Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən və Xızı rayonlarının 200-dən çox yuxarı sinif şagirdi, onları müşayiət edən müəllimlər iştirak edir.

Məktəblilərə bildirilib ki, ümumtəhsil məktəblərinin şagirdləri və onların müəllimləri noyabrın 16-dan 19-dək şimal-qərb bölgəsinə səyahət zamanı Qəbələ, Şəki və Zaqatalanın tarixini, mədəniyyətini, əhalinin həyat tərzini və məişətini əks etdirən abidələrlə, muzeylərlə, ərazinin turizm potensialı, regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası istiqamətində görülən işlər və həyata keçirilən infrastruktur layihələri ilə yaxından tanış olmaq imkanı qazanacaqlar.

Tur-aksiyada iştirak edən məktəblilər Aydan Musayeva və Ceyhun Bəybalayev müsahibələrində Qəbələ, Şəki, Zaqatala haqqında çox eşitsələr də, bu bölgədə ilk dəfə olacaqlarını bildiriblər. Məktəblilər belə bir imkanı yaratdığı üçün dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

Sonra məktəblilər xüsusi avtobusla ekskursiyaya yola salınıblar.

### Tovuz

Rayondan 40 nəfər IX-XI sinif şagirdi 5 bələdçi-müəllimin müşayiəti ilə noyabrın 16-da Qəbələ şəhərinə yola salınıb.

Yolasalma mərasimindən əvvəl rayon icra hakimiyyətində tur-aksiya iştirakçıları ilə keçirilən görüşdə bildirilib ki, respublikamızda gənclərin hərtərəfli inkişafı üçün gözəl şərait yaradılıb. “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyası da gənclərə dövlət qayğısının təzahürüdür. Azərbaycanın regionları ilə tanışlıq məktəblilərin dünyagörüşünü daha da zənginləşdirir, gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm rol oynayır.

Məlumat verilib ki, tovuzlu gənclər dörd gün ərzində Qəbələ, Şəki və Zaqatala rayonlarında tarixi abidələrlə, digər görməli yerlərlə yaxından tanış olacaqlar. Tur-aksiya məktəblilərin səfər etdikləri bölgələrin müasir inkişaf səviyyəsi ilə də tanış olmasına şərait yaradacaq.

Aksiya çərçivəsində məktəblilər Qəbələ rayonunda Heydər Əliyev adına Konqres Mərkəzi, “Qəbələnd” istirahət mərkəzi, “Beltmann” pianino zavodu, “Tufandağ” Xizəkçilik Kompleksi və Qəbələ Konserv Zavodu ilə tanış olacaq, Çuxur Qəbələ Tarix-Mədəniyyət Qoruğuna, Nohur gölünə, Vəndam şəlaləsinə, udilərin yaşadığı Nic kəndinə ekskursiya edəcəklər. Şəkidə Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndində yerləşən qədim Alban məbədi, Zaqatala rayonunda isə Zaqatala Tarix-Mədəniyyət Qoruğu, Dədə Qorqud Meydanı ilə tanışlıq məktəblilərdə zəngin təəssürat doğuracaq.

Tur-aksiya iştirakçısı, Qovlar şəhər S.Kazımov adına tam orta məktəbin XI sinif şagirdi Hüseyn Quliyev deyib: “Ölkəmizin regionlarını gəzmək, tarixi yerləri ilə tanış olmaq çoxdankı arzum idi. Əminəm ki, bu tur-aksiya mənim və yaşıdlarımın dünyagörüşünün artmasına müsbət təsir göstərəcək. Belə layihələr gənclərin ölkəmiz haqqında təsəvvürünün, biliklərinin artmasında əvəzsiz rol oynayır”.

Qaraxanlı kənd tam orta məktəbin şagirdi Nigar Hüseynova da layihədə iştirak etdiyi üçün sevincini bölüşüb: “Qəbələ, Şəki və Zaqatala rayonlarının tarixi, bu yerlərin əsrarəngiz gözəllikləri haqqında çox eşitmişəm. Tur-aksiya zamanı bütün bunları əyani şəkildə görə biləcəyəm. Məktəblilər üçün belə bir imkanı yaratdığına görə tur-aksiyada iştirak edən şagirdlər adından dövlət başçısına minnətdarlığımı bildirmək istərdim”.

Qrupun bələdçisi Müşfiq Əliyev bildirib ki, tur-aksiyada iştirak edən şagirdlər 4 gün ərzində Qəbələ, Şəki və Zaqatala rayonunun tarixi abidələri ilə tanış olacaq, rayonların gəzməli, görməli yerlərinə səfər edəcəklər. Bu isə məktəblilərin dünyagörüşünü daha da zənginləşdirəcək.

Tur-aksiya iştirakçıları ümummilli lider Heydər Əliyevin Tovuz şəhərinin mərkəzindəki abidəsi önünə gül-çiçək dəstələri düzdükdən sonra Qəbələ şəhərinə yola düşüblər.

### Salyan - Şirvan - Neftçala - İmişli

Salyan rayonundan olan iştirakçılar noyabrın 16-da Gəncə-Şəmkir-Göygöl marşrutu istiqamətində yola çıxıblar.

Bu münasibətlə rayonun rəhbər işçilərinin, müəllimlərin, valideynlərin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə şəhərdəki Heydər Əliyev Parkında yolasalma mərasimi keçirilib.

Tur-aksiya iştirakçıları parkda ümummilli liderin abidəsi önünə gül dəstələri düzərək dahi rəhbərin xatirəsini ehtiramla yad ediblər.

Qrup rəhbəri, rayon icra hakimiyyətinin əməkdaşı Lalə Həmzəyeva bildirib ki, dövlət başçısının təşəbbüsü ilə keçirilən tur-aksiyanın iştirakçıları - Salyan rayon ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri Gəncə şəhərinə yola düşürlər. Dörd gün davam edəcək aksiyanın iştirakçıları Gəncə şəhərinin, Şəmkir və Göygöl rayonlarının tarixi abidələri, görməli yerləri ilə yaxından tanış olacaqlar.

Mərasim başa çatdıqdan sonra tur-aksiya iştirakçıları onlar üçün ayrılmış avtobusla Gəncə şəhərinə yollanıblar.

* * *

Noyabrın 16-da səhər saatlarında Şirvan Şəhər İcra Hakimiyyəti qarşısındakı meydanda şəhər rəhbərliyi və təhsil şöbəsinin məsul işçiləri, valideynlər “Ölkəmizi tanıyaq” maarifləndirici tur-aksiyasının Gəncə-Şəmkir-Göygöl marşrutunun iştirakçıları olan şirvanlı şagirdləri qərb bölgəsinə yola salıblar.

Qrup rəhbəri, şəhər təhsil şöbəsinin işçisi Elçin Həsənov deyib: “Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizdə təşkil olunan maarifləndirici tur-aksiyanın iştirakçıları - Şirvan şəhər ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və onların müəllimləri dörd gün ərzində Gəncə-Şəmkir-Göygöl rayonlarının sosial-iqtisadi inkişafı ilə yaxından tanış olacaqlar. Səfər proqramımız olduqca zəngindir. İnanıram ki, məktəblilərimiz ölkənin qərb bölgəsinə səfərdən xoş təəssüratlarla qayıdacaqlar”.

Tur-aksiyada iştirak edən şəhər 9 nömrəli tam orta məktəbin X sinif şagirdi Rüfət İsgəndərov sevinc hissini belə ifadə edib: “Çox sevinirəm. İlk dəfədir ki, tur-aksiyada iştirak edirəm. Qərb bölgəsini görmək çoxdankı arzum idi. Artıq bu arzum reallığa çevrilib. Bizə bu imkanı Prezident İlham Əliyev yaradıb. Bu diqqət və qayğıya görə dövlət başçısına minnətdaram”.

Sonra tur-aksiyada iştirak edən məktəblilər Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə yola düşüblər.

* * *

Noyabrın 16-da səhər saatlarında Neftçala şəhərindəki Heydər Əliyev Mərkəzinin qarşısında da böyük izdiham vardı. Rayonun rəhbər işçiləri, müəllimlər, valideynlər və ictimaiyyət nümayəndələri “Ölkəmizi tanıyaq” layihəsi çərçivəsində təşkil olunmuş maarifləndirici tur-aksiyanın Neftçaladan olan iştirakçılarını Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə yola salmaq üçün buraya toplaşmışdılar.

Qrupun müşayiətçisi, rayon icra hakimiyyətinin əməkdaşı Elnur Bağırov bildirib ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, ölkəmizdə səkkizinci dəfə keçirilən maarifləndirici tur-aksiyanın iştirakçıları - Neftçala rayonunun ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri və onların müəllimləri dörd gün ərzində Gəncə şəhərinin, Göygöl və Şəmkir rayonlarının tarixi abidələri, sosial-iqtisadi inkişafı, görməli yerləri ilə yaxından tanış olacaqlar. Bölgələrimizlə tanışlıq şagirdlərin dünyagörüşünün formalaşmasında mühüm rol oynayacaq.

Tur-aksiyanın digər iştirakçıları - şəhər 1 nömrəli tam orta məktəbin X sinif şagirdləri Aysel İbrahimova, Məhəmməd Hüseynli və başqaları layihənin təşkilindən razılıqlarını bildirərək, diqqət və qayğıya görə dövlət başçısına təşəkkür ediblər.

Meydana toplaşanların xeyir-duası ilə avtobus Gəncə-Göygöl-Şəmkir marşrutu istiqamətində yola düşüb.

* * *

Tur-aksiyanın İmişlidən olan iştirakçıları da noyabrın 16-da sübh tezdən rayondakı Heydər Əliyev Parkına toplaşmışdılar. Gəncə-Şəmkir-Göygöl marşrutu üzrə qərb bölgəsinə səfər edən imişlili məktəbliləri rayon icra hakimiyyəti və təhsil şöbəsinin rəhbər işçiləri, valideynlər yola salıblar.

Qrup rəhbəri, rayon icra hakimiyyətinin əməkdaşı Ziya Paşayev səfər proqramı barədə məlumat verərək deyib: “Prezident İlham Əliyevin tapşırığına əsasən, keçirilən maarifləndirici tur-aksiya çərçivəsində İmişlinin ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri dörd gün ərzində Gəncə-Şəmkir-Göygöl rayonlarının tarixi abidələri, sosial-iqtisadi inkişafı və əsrarəngiz təbiəti ilə yaxından tanış olacaqlar. Azərbaycanın regionları ilə tanışlıq məktəblilərdə vətənpərvərlik hissinin formalaşmasında əvəzsiz rol oynayır. Dövlət başçısı təhsilimizin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə həssaslıqla yanaşdığı kimi, məktəblilərin dünyagörüşünün formalaşmasının, onların asudə vaxtlarının səmərəli keçməsinin də qayğısına qalır. Şagirdlərimizə bu imkanı yaradan dövlət başçısına minnətdarıq”.

Tur-aksiyanın iştirakçısı, İmişli şəhər 1 nömrəli tam orta məktəbin X sinif şagirdi Əhəd Həsənli ekskursiyadan zəngin təəssüratla qayıdacaqlarına əmin olduğunu bildirib.

Sonda şagirdlər xüsusi avtobusla Gəncə-Şəmkir-Göygöl marşrutu istiqamətində yola çıxıblar.